**“Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əsasnaməsinin və strukturunun təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə”ni “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2016-cı il 16 dekabr tarixli 467-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, 6, maddə 416; 2004, 6, maddə 440, 9, maddə 674; 2005, 6, maddə 491, 12, maddə 1102; 2006, 7, maddə 592, 8, maddə 659; 2007, 6, maddə 615, 9, maddə 869, 10, maddə 947, 11, maddə 1106; 2008, 3, maddə 168, 8, maddə 719; 2009, 5, maddə 322, 12, maddə 983; 2010, 2, maddə 83, 3, maddə 185; 2011, 2, maddə 85, 6, maddə 508, 9, maddə 791; 2012, 9, maddə 852; 2013, 5, maddə 511, 11, maddə 1320; 2014, 12, maddə 1573; 2015, 2, maddə 127, 6, maddə 697, 12, maddə 1474; 2016, 3, maddə 455, 6, maddə 1070, 12, maddə 2057; 2017, 5, maddə 783) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 3.1.17-1-ci yarımbənd əlavə edilsin:

“3.1.17-1. dövlət avtomobil yollarında parklanma yerlərinin təşkil edilməsi ilə bağlı müvafiq yerli icra hakimiyyəti orqanı ilə razılaşdırılmış təkliflər verir, bələdiyyə və özəl avtomobil yollarında parklanma yerlərinin təşkil edilməsində iştirak edir;”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 10 oktyabr 2017-ci il
1629